# Kredo

MÜBARİZƏSİDİR! TARİX İNSANIN ƏQİDƏ VƏ İNAM UĞRUNDA

Müstəqil ictimai-siyasi, publisistik qəzet №24 (1280) 10 sentyabr 2025-ci il | Qiyməti 1 manat | Qəzet 1999-cu ilin oktyabrından çıxır


# BƏDNAM OHANYAN XƏTTİNDƏ ƏNCİR TƏNTƏNƏSİ,

## *yaxud Quycaq haqqında nikbin elegiya*



*Əli Rza XƏLƏFLİ*

Cəbrayıl... Quycaq kəndi...

Kəndin girəcəyində Quzey kəhrizin dörd yanına əkilmiş çinar, tut, zeytun pöhrələri ilə salamlaşdıq... Roman vedrələri götürüb tingləri sevindirməyə getdi...

Əyilib qalxa bilməsəm də dörd beş pöhrəyə də mən su verməyə çalışdım...

Deyəsən yarpaq dilləri ilə pıçıldaşan tinglər istiyə acıq verirdi; bizi sahibsiz bilmə...

98 fidan... insanın yurduna sonsuz sevgisi haqqında gələcəyə soraq aparacaq...

Bu təbiət parkının ən görkəmli yerində Quycaqlı igid şəhidlərin portreti qonaqlara , doğmalara , səfər üstə olanlara öz sükutları ilə deyirdi: "Biz burdayıq, özü də əbədi olaraq"

Arif Alekseyev, Fuad Əsədov, Şaiq, Elsevər... çinar oğulların qüruru; Vətənin gücü, torpağın qüdrəti.

Fuad haqqında "Arzulara dəyən güllə " adlı monoqrafik esse janrında kitab yazmışam...

Bu günlərdə söz arası həmin kitabı müsahiblərimə xatırlatdım İntiqam Eyvazlı adlı keçmiş döyüşçü, ehtiyatda olan zabit " mən o kitabı axtarıram" - dedi.

Çox sevindim, heç olmasa bir kitab arayanı görmüşdüm...

Ancaq söz arası deyim ki, Roman da çox mütaliəli ziyalıdır... mənim də yaradıcılığımı pis bilmir...

İntiqam üçün kitabı şəhərdən oğlum gətirdi, bu gün verərəm ona...

...Qayıdıram təbiətə.... bəzən insanı onilliklər boyu yaxşı tanıya bilməsək də, təbiət insana, insanlığa həmişə açıqdır. Xəyanət eləmə, doğma yanaş, səni yaşadar, ömrünü uzadar...

Təbiət insanın özündən də sədaqətlidir həqiqətlərə...

Roman məni evlərinə... dəvət etmişdi... həyətlərindəki əncirə qonaq eləmək üçün...

Əncir ağacı çox canlı və diri idi... meyvələrin - göbəyindən şirəsi süzülən bənövşəyi rəngi, şirəli dodaqları ilə gəl, gəl deyirdi...

Roman Suleymanov əncir kolunun yarım dünya əhatəsini dolanıb yaxınlıqdakı , üstü məftil, dəmir qırıntıları ilə örtülmüş quyunu göstərdi:

- Bu Orta kəhrizin gözüdür... kəhrizin yeraltı lağımı burdan keçir...



O demək istəyirdi ki, əncir ağacının belə diri və canlı qalmasının qaynağı sudur.

Yeri gəlmişkən, qeyd edim ki, Quycaq qədim kənddir...Qasım bəy Zakirin yaradıcılığında da xatırlanır...

Ən bol, saf su ehtiyatı bu kənddədir...Baş kəhriz, Orta kəhriz, Sofular kəhrizi, Güney kəhrizi və Quzey kəhrizi kimi adlı kəhrizləri məşhurdur... bərəkətli bağları, geniş, əkinə yararlı əraziləri həyatın davamı üçün çox əlverişlidir... Quycaq, Nüzgar, Şəybəy kəndlərinin təsərrüfat birliyi həm də mənəvi birliyə əsas olub.

Atamın dostu sürücü Tahir əmini xatırladım... çox qonaqpərvər, istiqanlı adam idi... ailəlikcə bizə - Xələfliyə gələrdilər... bizim də bir ayağımız onlarda olardı... bir anlığa istədim çağıram"ay Tahir əmi hardasan".

Söz boğazıma tıxandı... xarabalıqlar arası göz gəzdirdim; haranı, kimi çağırasan.

Adamı vahimələndirən xarabalıqlar arasında möhtəşəm əncir ağacı sanki həyat uğrunda bir qərinəlik mubarizədən qalib çıxmışdı...

Hələ də əzəmətinin izlərini saxlayan evin xarabalığı önündə Roman ayaq saxlayıb dedi:

- Gəl, şair, evimizə xoş gəlmisən.

Vahiməli sükutun və sarsıdıcı sözün qabağında tövrümün sakitliyini güclə saxlamağa çalışdım.

Axı təskinliyim də vardı: Bu evdə Romanın dünyaya övladları gəlib... yeniyetməlik və gəncliklərı işğal dövrünə, talelərinə köçkünlük əzablarını yaşamaq düşsə də Roman onları ləyaqətlə böyüdüb... indi dünyanın müxtəlif ölkələrində Vətəni uğurla təmsil edirlər.

Yaxşı təskinlikdir deyilmi.

Bir az yuxarıdan düşmənin güya əfsanəvi Ohanyan xətti keçirdi, bədnamlığın həqiqəti... qazılmış, səngərə çevrilmiş torpaq özgəsinin yurduna göz dikməyin aqibətinin güzgüsü idi... bu səngərlərdən nə qədər düşmən cəsədləri yığılmışdı... Azərbaycan ordusu, nəvələrimin də təmsil olunduğu DƏMİR YUMRUQ kimin kim olduğunu tarixə layiqincə həkk elədi... Yeri gəlmişkən, mən indi Cəbrayılda DƏMİR YUMRUQ küçəsindəki evimdə yaşayıram..

Üzümü çöllərə, uzaq dağlaracan uzanıb gedən üfüqün doğmalığına



tərəf tuturam... bu vaxt sanki fasilədən qayıdan orkestrin təntənəli ifası ... sevgi nəğmələri dilə gəldi; kəkliklər oxuyurdu...

Təbiət danışırdı: yağılar qanla gəldikləri kimi qanla da qovuldular... yurd yenə bizə qaldı







...

Quycaq abadlığını gözləyir...

Bu da bədnam Ohanyan xəttində əncir təntənəsi...

Mən bir az təbiətin dilini bilirəm...

*15.08.2025*